# Şuşa həsrəti ilə döyünən ürək



Ukrayna Azərbaycanlıları Konqresinin orqanı olan "Qolos Azerbaydjana" qəzetinin bir neçə il öncə çap olunmuş nömrələrindən biri qarşımızdadır. Buradakı "Şuşalı həkim" adlı zövqlə hazırlanmış bir yazı diqqəti cəlb edir. Məqalənin müəllifi, Ukraynanın əməkdar energetiki, milli diasporumuzun formalaşmasında böyük xidmətləri olan Akif Gülməmmədov Bakının Nərimanov rayonu ərazisində çalışan, əslən Şuşadan olan stomatoloq Nasir Aslanovun insanların sağlamlığı keşiyində ayıq-sayıq durmasından, ən çətin anlarda xəstələrə ürəklə göstərdiyi xidmətdən söhbət açır.

Məqalənin müəllifi Akif müəllim qeyd edir ki, isti yay günlərinin birində qızım Günayla Bakı şəhərinə gəlmişdim. Səhər tezdən idi. "Respublika" qəzetinin yeni nömrəsini nəzərdən keçirir, bir-birindən maraqlı yazıları çox həvəslə oxuyurdum. Qəflətən gözlərim qəmgin-qəmgin və sakit baxışlarla məni süzən qızıma sataşdı. Deyəsən o, astadan ağlayır, narahatlığı aydınca hiss olunurdu. Dərhal ona yaxınlaşdım.

— Qızım, nə baş verib, niyə həyəcanlısan - deyə ona müraciət etdim.

O, ani bir sükutdan sonra bildirdi ki, diş ağrılarından əziyyət çəkir, kəskin ağrı səngimək bilmir ki, bilmir.

Qızıma ürək-dirək verib, onu sakitləşdirməyə çalışdım. 18 nömrəli poliklinikada çalışan yaxın dostum Mənsur həkimə zəng çaldım. Onunla görüş üçün vaxt müəyyənləşdirdim. Birlikdə stomatologiya kabinetinin müdiri, təcrübəli həkim Nasir Aslanovun iş yerində olduq.

Beş-on dəqiqə tanışlıqdan sonra Nasir həkim Günay balamı yaxşı-yaxşı müayinədən keçirib, ona ağrıdan xilas olmaq üçün ilk yardımını göstərdi. Məsləhət gördü ki, hökmən xəstə bir neçə gün stomatologiya kabinetində növbə tutub dişlərini yaxşı-yaxşı müalicə etdirməlidir.

Cəmi bir həftənin içərisində Nasir həkim Kiyev şəhərindən Bakıya qonaq gəlmiş qızım Günayı çox ustalıqla müalicə edib, onu həyəcanlı anlardan xilas etdi. Bax beləcə, azərbaycanlı həkim, peşəsinin vurğunu olan Nasir həkim bizi xoş təəssüratla Ukraynaya yola saldı.

Biz Şuşa şəhərində dünyaya göz açan, Şuşanın müdafiəsində silaha sarılıb erməni daşnaklarına qarşı igidliklə vuruşan Nasir Aslanovla iş yerində görüşdük. O, xəstənin müalicəsi ilə məşğul idi. Nəhayət, vaxt tapıb Nasir həkimlə görüşmək bizə müyəssər oldu.

Nasir gəncliyinin coşub-çağlayan dövrlərində Qarabağın mirvarisi sayılan Şuşada stomatoloq kimi fəaliyyət göstərmiş, insanlara şəfa vermək üçün əlindən gələn hər şeyi etmişdir.

"Şuşasız günlərin indi necə keçir, yəqin ki, gecə-gündüz xəyalın o yerləri gəzir, gözləriniz qarşısında loğman təbiətli yurd yerləriniz canlanır" - deyə ağxalatlı sağlamlıq keşikçisinə müraciət etdik.

Nasir həkim qəlbindən süzülüb gələn sözləri ifadə edərək kövrək bir tərzdə dedi:

— Qala şəhəri adlanan və bu gün düşmən tapdağında olan Şuşaya təbiət bütün nemətlərini - saf havanı, təmiz suyu, əzəmətli dağları, zəngin meşələri, dərələri, ormanları, bir sözlə, saf və təmiz nə varsa, hamısını bəxş etmişdir. Şuşa elm, mədəniyyət, ədəbiyyat və incəsənət mərkəzi kimi görkəmli şəxsiyyətlərin müqəddəs vətəni olmuşdur.

Ulu öndər, dahi şəxsiyyət vaxtı ilə qarlı-çovğunlu bir gündə Şuşada tədbirdə iştirak etdiyi bir günü yaxşı xatırlayıram.

Pənahabad - Şuşa qala-şəhəri Azərbaycanın ən qədim ərazilərindən biridir. Artıq neçə illərdir ki, ömrümüz-günümüz Şuşasız keçir, ürəyimiz Şuşa həsrəti ilə döyünür.

Biz Nasir həkimlə söhbət edərkən vurğuladı ki, Şuşanın müdafiəsində həmişə doğma torpağı qeyrətlə qoruyub, "Qaraqaya" yüksəkliyində özünümüdafiə batalyonunda düşmənə sarsıdıcı zərbələr endirib və ağır yaralanıb...

**Qədir ASLAN,**
**"Respublika".**